# Yemək ədəbləri

**(ixtisarla)**

Tərcümə: A. Salehli

# Yemək ədəbləri

Həqiqətən şükür və tərif yalnız Allaha məxsusdur! Biz Ona həmd edirik, Onu köməyə çağırırıq, Ondan bağışlanma və bizi doğru yola yönəltməyi diləyirik, nəfslərimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona pənah aparırıq. Allah kimə hidayət verərsə onu azdıran tapılmaz, kimi azdırarsa onu doğru yola yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir.

**"Ey iman gətirənlər! Allahdan Ona layiq olan tərzdə qorxun və ancaq müsəlman olduğunuz halda ölün!"**

**"Ey insanlar! Sizi tək bir candan xəlq edən, onun özündən zövcəsini yaradan və onlardan da bir çox kişi və qadın *törədib yer üzünə* yayan Rəbbinizdən qorxun! Adı ilə birbirinizdən *cürbəcür şeylər* istədiyiniz Allahdan və qohumluq əlaqələrini kəsməkdən çəkinin! Həqiqətən, Allah sizə nəzarət edir".**

**"Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz danışın ki, O, əməllərinizi islah etsin və günahlarınızı bağışlasın. Kim Allaha və Onun Elçisinə itaət etsə, böyük bir uğur qazanar".**

1. Rəvayət edilir ki, Ömər ibn Əbu Sələmə ﵁ demişdir: "Mən Peyğəmbərin ﷺ himayəsi altında böyüyən bir uşaq idim. Yemək yeyəndə mən əlimi qabın hər tərəfinə uzadardım. (Bir dəfə) Peyğəmbər ﷺ mənə belə buyurdu: "Balaca, "bismillah" de, özün də sağ əllə və öz qabağından ye!" O gündən bəri mən yeməyi ancaq bu qaydada yeyirəm."[1]

Başqa bir rəvayətdə deyilir: "Bir dəfə mən Rəsulullahla ﷺ birlikdə yemək yeyərkən qabın müxtəlif yerlərindən yeməyə başladım. Bu zaman Peyğəmbər ﷺ mənə belə dedi: "Qarşındakından ye."[2]

[1] Buxari (5376).
[2] Buxari (5377).

Digər bir rəvayətdə isə deyilir: "Bir dəfə Peyğəmbər ﷺ himayəsində olan Ömər ibn Əbu Sələmə ilə birlikdə ikən ona yemək gətirildi. Bu zaman Peyğəmbər ﷺ dedi: "Bismilləh – de, bir də qarşındakından ye."[3]

2. Rəvayət edilir ki, Cəbələ ﵁ demişdir: "Biz bəzi iraqlılarla birlikdə Mədinədə olarkən bizə qıtlıq üz verdi. O vaxt ibn Zubeyr bizə xurma paylayırdı. İbn Ömər isə bizim yanımızdan keçib deyərdi: "Peyğəmbər ﷺ iki-iki xurma götürüb yeməyi qadağan etmişdir. Ancaq aranızdan birinin digərindən izn istəməsi istisnadır."[4]

3. Rəvayət edilir ki, Ənəs ibn Malik ﵁ demişdir: "Bir dərzi yemək hazırlayıb Peyğəmbəri ﷺ qonaq çağırdı. Mən də Peyğəmbərlə ﷺ birlikdə bu qonaqlığa getdim. Adam Peyğəmbərin ﷺ qabağına çörək və içində balqabaq və qurudulmuş ət tikələri olan şorba qoydu. Mən Peyğəmbərin ﷺ qabdakı balqabaq tikələrini seçib yediyini gördüm. O gündən bəri mən də balqabağı xoşlayıram."[5]

4. Rəvayət edilir ki, Ənəs ibn Malik ﵁ demişdir: "(Bir dəfə) Əbu Talhə Ummu Suleymə dedi: Mən Rəsulullahın ﷺ səsinin zəif olmasından anladım ki, o acdır, səndə (yeməyə) bir şey varmı? (Ummu Suleym) dedi: Bəli. Sonra o, bir neçə arpa çörəyi gətirdi, mən də onun baş örtüklərindən birini götürüb çörəkləri bir-birinin üstünə qoyduqdan sonra ona bükdüm və libasımın altına qoydum. (Ummu Suleym) onların bir hissəsini geri aldıqdan sonra məni Peyğəmbərin ﷺ yanına göndərdi. Mən gedib gördüm ki, Peyğəmbər ﷺ insanlarla birlikdə məsciddə oturub. Peyəmbər ﷺ dedi: "Səni Əbu Talhə göndərib?" Mən: bəli-deyə cavab verdim. O yenə soruşdu: "Yemək üçünmü?" Mən: Bəli-deyə cavab verdim. Bu zaman Peyğəmbər ﷺ yanındakılara: "qalxın" – dedi. Onlar qalxıb yola düzəldilər. Mən onların önündə gedirdim və gəlib olanları Əbu Talhəyə anlatdım. Əbu

---

[3] Muslim (1599).
[4] Buxari (2455), Muslim (2045).
[5] Buxari (2092), Muslim (2041).

Talhə dedi: Ey Ummu Suleym, Rəsulullah insanlarla birlikdə gəlib, bizdə isə onları yedirtmək üçün kifayət qədər yemək yoxdur. (Ummu Suleym) dedi: Allah və rəsulu daha yaxşı bilir. Sonra Əbu Taləhə gedib Rəsulullahı ﷺ qarşıladı və onlar birlikdə içəri daxil oldular. Peyğəmbər ﷺ dedi: "Ey Ummu Suleym, ver görək nəyin var." Ummu Suleym həmin çörəyi gətirdi. Sonra Peyğəmbər ﷺ əmr verdi ki, çörəklə birlikdə yeyilməsi üçün içərisində yağ olan qab da gətirdi. Peyğəmbər ﷺ onun içərisinə nə isə oxuduqdan sonra dedi: "İcazə verin on nəfər gəlsin." Onlar gəlib yemək yeyib doyduqdan sonra çıxıb getdilər. Sonra Peyğəmbər ﷺ yenə dedi: "İcazə verin on nəfər də gəlsin." Həmin on nəfər də gəlib yemək yeyib doyduqdan sonra çıxıb getdilər. Sonra yenə Peyğəmbər ﷺ dedi: "İzn verin daha on nəfər də gəlsin." Bu minvalla insanların hamısı yeyib doydu. Onların sayı yetmiş-səksən nəfər idi."[6]

5. Rəvayət edilir ki, Abdur-Rəhman ibn Əbu Bəkr ﵁ demişdir: "Bir dəfə biz – yüz otuz nəfər Peyğəmbərlə ﷺ bir yerdə olarkən Peyğəmbər ﷺ soruşdu: "Yanında yeməyi olan varmı?" Bu vaxt bir nəfərin (xurcunundan) bir saa un çıxdı və bundan xəmir yoğruldu. Sonra hündürboylu, saçları dağınıq halda olan bir müşrik bizim yanımıza gəldi və özü ilə qoyun sürüsü gətirdi. Peyğəmbər ﷺ soruşdu: "Satırsan, ya hədiyyə verirsən?" O: "Xeyr, satıram!"- dedi. Onda Peyğəmbər ﷺ ondan bir qoç aldı və (ondan) yemək bişirildi. Sonra Peyğəmbər ﷺ onun içalatını qızartmağı əmr etdi. Allaha and olsun ki, Peyğəmbər ﷺ bu içalatdan yüz otuz nəfərin hər birinə verdi. Orada olanların payını özlərinə verdi, olmayanların payını isə ayırıb saxladı. Qalan əti də iki qaba qoydu. Hamımız (ondan) yeyib doyduq. Axırda iki qab yemək artıq qaldı. Onu da dəvəyə yüklədik."[7]

6. Rəvayət edilir ki, ibn Abbas ﵁ demişdir: "(Bir dəfə) ibn Abbasın xalası Peyğəmbərə ﷺ qurut, yağ və bir neçə kərtənkələ hədiyyə göndərdi. Peyğəmbər ﷺ qurutu və yağı yedi, kərtənkələləri isə

[6] Buxari (3578), Muslim (2040).
[7] Buxari (5383), Muslim (2056).

xoşlamadığına görə qırağa qoydu." İbn Abbas dedi: "(Bəziləri) Peyğəmbərin ﷺ süfrəsi başında kərtənkələləri yedilər. Əgər haram olsaydı, onlar Peyğəmbərin ﷺ süfrəsi başında yeyilməzdi."[8]

7. Əbu Hureyra ؓ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "İki nəfərin yeməyi üç nəfərə bəs edər, üç nəfərin yeməyi də dörd nəfərə bəs edər."[9]

Digər bir rəvayətdə isə Peyğəmbər ﷺ demişdir: "Bir nəfərin yeməyi iki nəfərə, iki nəfərin yeməyi dörd nəfərə, dörd nəfərin yeməyi isə səkkiz nəfərə bəs edər."[10]

8. Rəvayət edilir ki, Abdur-Rəhman ibn Əbu Bəkr ؓ demişdir: "Süffə[11] əhli kasıb adamlar idi. (Odur ki,) Peyğəmbər ؓ buyurdu: "Kimin iki nəfərlik yeməyi varsa, qoy üçüncü bir adamı da (yeməyə) dəvət etsin, əgər dörd nəfərlikdirsə, beşincisini və ya altıncısını da (yeməyə çağırsın)." Əbu Bəkr üç nəfəri, Peyğəmbər ﷺ isə on nəfəri (evinə) apardı. Mən, anam və atam (bir evdə yaşayırdıq). (Hədisin ravisi demişdir ki, mən Abdur-Rəhmanın:) "Arvadım və Əbu Bəkrə qulluq edən xidmətçim də" deyib-demədiyini xatırlamıram. (Abdur-Rəhman ؓ deyir ki): "Əbu Bəkr Peyğəmbərin ﷺ yanında axşam yeməyini yedi, sonra da işa namazını qılana qədər gözlədi. Daha sonra geri qayıdıb Peyğəmbər ﷺ axşam yeməyini yeyənə qədər orada qaldı və gecənin bir hissəsi keçdikdən sonra evinə gəldi. Arvadı ondan soruşdu: "Qonaqlarının yanına gəlməyə sənə nə mane oldu?" O dedi: "Olmaya, onlara şam yeməyi verməmisən?" Arvadı dedi: "Onlar sən gələnədək (yemək) istəmədilər, qabaqlarına yemək qoyuldu, lakin imtina etdilər." (Abdur-Rəhman ؓ) deyir ki: "Mən (atamın qorxusundan) qaçıb gizləndim." Atam isə: "Ay həşərat!"– deyə qışqırıb (məni) danladı. (Yemək süfrəyə gətirildikdən sonra) dedi:

---

[8] Buxari (7358), Muslim (1946-1947).

[9] Buxari (5392), Muslim (2058).

[10] Muslim (2059).

[11] Süffə – Peyğəmbər r məscidinin içində, üstü talvarla örtülmüş bir yerdir. Mədinədə ev-eşiyi və mal-mülkü olmayan əshabələr burada qalırdılar. Bu səbəbdən də onlara süffə əhli deyirdilər.

“Yeyin, onsuz da canınıza sinməyəcək! Vallahi, mən o yeməkdən yeməyəcəyəm!”

(Abdur-Rəhman ﵁) deyir ki: “Allaha and olsun ki, biz (hər dəfə) bir loxma götürdükcə altından (yemək) daha da artırdı. Nəhayət, hamı yeyib doydu və yemək əvvəlkindən daha çox oldu. Əbu Bəkr yeməyə baxıb onun olduğu kimi qaldığını və ya daha da artdığını görəndə arvadına dedi: “Ey Firas oğullarının bacısı, bu nədir?” Qadın dedi: “Gözün aydın! İndi yemək əvvəlkindən üç dəfə artıq olmuşdur!” Beləliklə, Əbu Bəkr ﵁ də o yeməkdən yedi və (yeməyə toxunmayacağına dair) and içməsini qəsd edərək: “Bu, şeytanın işidir”– dedi. O, yeməkdən bir loxma da yedikdən sonra onu Peyğəmbərin ﷺ yanına apardı və yemək səhərə qədər onun yanında qaldı. (O vaxta qədər) bizimlə bir qəbilə arasında saziş bağlanmışdı ki, artıq onun müddəti bitmişdi. Biz (bu qəbilədən) on iki nəfər seçdik; (onlardan) hər birinin yanında Allaha məlum olan sayda adamlar var idi, onların hamısı bu xörəkdən yedi” və ya buna bənzər bir söz dedi.”[12]

9. Əbu Hureyra ﵁ rəvayət edir ki, bir gün gecə vaxtı Peyğəmbər ﷺ çölə çıxmışdı. Birdən o, Əbu Bəkr və Ömərlə qarşılaşdı. O, soruşdu: “Belə bir vaxtda sizi evdən çıxmağa vadar edən nədir?“ Onlar aclıq ey Allahın rəsulu – deyə cavab verdilər. Peyğəmbər ﷺ dedi: “Canım Əlində olan Allaha and olsun ki, mən də məhz bu səbəbdən çölə çıxmışam. Qalxın (gedək.)” Onlar da qalxıb peyğəmbərlə ﷺ birlikdə bir ənsarın evinə gəldilər. Həmin vaxt ənsar evdə deyildi. Onun xanımı peyğəmbəri gördükdə ona: xoş gəlmisiniz - dedi. Peyğəmbər ﷺ ondan soruşdu: “Filankəs haradadır? “ Qadın dedi: Bizim üçün su gətirməyə gedib. Az sonra ənsar da gəldi. O, peyğəmbəri ﷺ və onun yanındakı iki dostunu gördükdə dedi: Əlhəmdulilləh, bu gün məndən daha şərəfli qonaqları olan bir kimsə ola bilməz. Bunu deyib o, xurma salxımları gətirdi. Sonra da bıçağını götürdü. Bu zaman peyğəmbər ﷺ ona dedi: “Südverən heyvanı kəsmə.” Ənsar onlar üçün bir qoyun kəsdi. Onlar qoyundan, xurmadan yeyib su içib doyduqda Peyğəmbər ﷺ üzünü

---

[12] Buxari (6141-3581-602), Muslim (2057).

Əbu Bəkrlə Ömərə tutub dedi: "Canım əlində olan Allaha and olsun ki, Qiyamət günü bu nemətlər barəsində sorğu-sual olunacaqsınız. Aclıqdan dolayı evlərinizdən çıxdınız, sonra da bu nemətlər sizə nəsib olduqdan sonra geri dönürsünüz."[13]

10. Əbu Hureyra ﵁ rəvayət edir ki, bir nəfər Peyğəmbərin ﷺ yanına (qonaq) gəldi. O, (əshabələrdən) birini (yemək-içmək gətirmək üçün) zövcələrinin yanına göndərdi. Peyğəmbərin ﷺ zövcələri evdə sudan başqa heç nə olmadığını ona xəbər verdilər. Onda o, (əshabələrinə müraciət edib) dedi: "Kim (mənim qonağıma) qayğı göstərər və ya onu evində qonaq saxlayar?" Ənsardan olan bir nəfər: "Mən!"– deyib onu evinə apardı və zövcəsinə: "Rəsulullahın qonağına layiqincə hörmət et!"- deyə buyurdu. (Zövcəsi ona): "Uşaqlarımın yeməyindən başqa yemək yoxdur!"– deyə cavab verdi. (Əshabə) dedi: "Yeməyi hazırla, çırağı yandır, uşaqlar yemək istəsələr, onları yatızdır!" Zövcəsi yeməyi hazırladı, çırağı yandırdı və uşaqlarını yatızdırdı. Sonra ayağa qalxıb özünü guya çırağı düzəldirmiş kimi göstərdi və bilərəkdən onu söndürdü. Sonra hər ikisi (əllərini qaba uzadaraq) özlərini guya yemək yeyirlərmiş kimi (qonağa) göstərdilər və o gecə onlar ac yatdılar. Səhər açıldıqda hər iki əshabə Peyğəmbərin ﷺ yanına getdi. Peyğəmbər ﷺ (onlara): "Allah sizin dünənki əməlinizə güldü və ya ondan təəccübləndi!"– dedi və bu ayə nazil oldu: **"...Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır."[14]**

11. Səmura ibn Cundəb ﵁ rəvayət edərək demişdir: "Bir dəfə biz günortadan ta gecəyədək Peyğəmbərlə ﷺ birlikdə bir qabdan yemək yeyirdik. On nəfər yeyib bitirdikdən sonra qalxır və növbəti on nəfər otururdu. Biz soruşduq: Bəs yemək haradan gəlirdi? O dedi: Niyə təəccüblənirsən ki? Bax oradan gəlirdi. O, bunu deyərək əli ilə səmaya işarə etdi."[15]

---

[13] Muslim (2038), Muvatta (2/932).
[14] Buxari (4889), Muslim (13/13).
[15] Tirmizi, Töhfətul-Əhfəzi 10/98.

12. Abdullah ibn Busr ﷺ demişdir: "Yeməyin qıt olduğu bir gündə Peyğəmbərə ﷺ bir qoç gətirdilər. Peyğəmbər ﷺ əhli-əyalına: "Bu qoçu bişirin. Bu undan da çörək hazırlayın"– deyə buyurdu. Peyğəmbərin ﷺ Ğarra deyilən və dörd kişinin qaldıra biləcəyi böyük bir sinisi var idi. Nəhayət, səhər açıldıqda bu sinini gətirib yeməyi onun içinə qoydular. Camaat bu yeməyin başına yığışdığı zaman Peyğəmbər ﷺ dizi üstə (yeməyə) oturdu. Onda bədəvilərdən biri ondan: "Bu nə oturuşdu?"– deyə soruşdu. Peyğəmbər ﷺ buyurdu: "Allah məni inadkar və dikbaş yox, ehtirama layiq bir qul etmişdir." Sonra davam edib dedi: "Yeməyin qırağından yeyin! Ortasını (axıra) saxlayın ki, bu yemək sizin üçün bərəkətli olsun. Götürün, yeyin! Muhəmmədin canı Əlində olan Allaha and olsun ki, siz Fars və Rum diyarlarını fəth edəcəksiniz. İş o yerə gəlib çatacaq ki, yemək çoxalacaq, lakin üzərində Allahın adı çəkilməyəcəkdir (yəni, bəziləri o dərəcədə harınlayacaqlar ki, yemək yedikdə "bismilləh" deməyəcəklər)"[16]

13. Aişə ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ belə buyurmuşdur: "Sizdən biriniz yemək yediyi zaman yeməyin əvvəlində Uca Allahın adını çəkməyi[17] unutsa, qoy: "Bismilləhi əvvələhu və axirəhu[18]"– desin."[19] Digər bir rəvayətdə isə deyilir ki, bir dəfə Peyğəmbər ﷺ altı səhabəsi ilə birlikdə yemək yeyirdi. Bu zaman bir bədəvi gəlib onların yeməyini iki loxmaya yeyib bitirdi. Peyğəmbər ﷺ dedi: "Əgər o, bismilləh - demiş olsaydı hamınıza kifayət edərdi."

14. Aişə ﷺ rəvayət edir ki, bir dəfə mən xörək bişirib onu Peyğəmbərə ﷺ apardım. Bu zaman Peyğəmbərin yanında olan Səudəyə dedim: Sən də ye. O isə yemək isəmədi. Mən dedim: Yeməsən sənin üzünü bulayacağam. O yenə razılaşmadı. Bu zaman mən əlimi

---

[16] Əbu Davud 10/98, Avnul Məbud (3767), Silsilətul-Əhadisis-Səhihə, 393-cü hədis

[17] Yəni, "Bismilləh" deməyi.

[18] Tərcüməsi: Əvvəlində də, axırında da Allahın adı ilə!

[19] Bu hədisi Əbu Davud (3767), Tirmizi (1859), Nəsai (281), İbn Macə (3264), Əhməd (6/207) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

xörəyə batırıb onun üzünə sürtdüm. Bunu görən Peyğəmbər ﷺ gülərək Səudənin əlini xörəyə batırıb dedi: “Sən də onun üzünə sürt.” Sonra yenə güldü. Bu zaman Ömər evə yaxınlaşıb: “Ey Allahın qulu, ey Allahın qulu – deyə səsləndi. Peyğəmbər onun içəri daxil olacağını zənn edərək bizə : “Qalxın üzünüzü yuyun.” – deyə buyurdu. Aişə dedi: Peyğəmbər Ömərdən çəkindiyinə görə həmin vaxtdan etibarən mən də ondan çəkinməyə başladım.”[20]

15. Ənəs ibn Malikdən ﷺ rəvayət olunan hədisdə o demişdir: Peyğəmbər ﷺ yeməyi bitirdikdə üç barmağını yalayar və deyərdi: “Birinizin əlindən loxması yerə düşdükdə onu təmizləyib yesin və onu şeytana saxlamasın.” Habelə o, bizlərə qabı da yalamağı buyuraraq deyərdi: “Siz bərəkətin yeməyin harasında olduğunu bilmirsiniz.”

16. Sövbandan ﷺ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: “Vaxt gələcək insanlar bir qabdan (yaxud sinidən) yemək yedikləri kimi, digər ümmətlər də sizin üzərinizdə meydan oxuyacaqlar.” Biz dedik: Məgər həmin vaxt sayımız az olacaq, ey Allahın rəsulu? O dedi: “Əksinə həmin vaxt sizin sayınız olduqca çox olacaq, lakin siz selin yığıb gətirdiyi çör-çöp kimi olacaqsınız. O zaman düşmənlərinizin qəlblərindən sizin heybətiniz götürüləcək, sizin qəlbinizdə isə vahn olacaqdır.” Soruşdular ki: Vahn nədir ey Allahın rəsulu? O dedi: “Həyata qarşı sevgi və ölümə qarşı nifrət.”[21]

17. Rəvayət edilir ki, Əbu Hureyra ﷺ demişdir: “Özündən başqa məbud olmayan Allaha and olsun ki, mən bəzən aclıqdan qarnımı yerə dayayardım, bəzən də aclığı hiss etməyim deyə qarnıma daş bağlayardım. Bir gün mən (müsəlmanların) gedib-gəldiyi yolun üstündə oturdum. Elə bu vaxt Əbu Bəkr gəlib yanımdan keçdi və mən ondan Allahın Kitabındakı bir ayə haqqında soruşdum. Ona sual verməkdə (məqsədim) ancaq bu idi ki, o, (aclıqdan əziyyət çəkdiyimi

---

[20] Əbu Yalənin Müsnəd əsəri (7/449).
[21] Hədisi Əhməd, (5/278), Əbu Davud, (2/210) və başqaları rəvayət etmiş , Muhəmməd Nasirəd-din Albani də hədisin səhih olduğunu bildirmişdir.

görüb) mənə yemək versin. Lakin o çıxıb getdi və mənə heç nə vermədi. Sonra Ömər gəlib keçdi və mən ondan da Allahın Kitabındakı bir ayə barəsində soruşdum və sual verməkdə (məqsədim) ancaq bu idi ki, o, mənə yemək versin. Amma o da (mənə heç bir şey vermədən) çıxıb getdi. Daha sonra Əbul Qasım ﷺ gəlib keçdi və məni gördükdə gülümsədi, ürəyimdən nələr keçdiyini üzümdən oxudu və dedi: "Ey Əbu Hirr!"[22] Dedim: "Əmrinə müntəzirəm, ya Rəsulullah!" O: "Gəl dalımca!"– deyib getdi, mən də qalxıb onun dalınca getdim. O gedib evə daxil oldu. Mən (içəri girmək) üçün izn istədim və mənə izn verildi. Peyğəmbər ﷺ evdə bir cam süd gördü və: "Bu süd hardandır?"- deyə soruşdu. (Ona): "Filankəs hədiyyə edib"– dedilər. Peyğəmbər ﷺ buyurdu: "Ey Əbu Hirr!" Dedim: "Əmrinə müntəzirəm, ya Rəsulullah!" Dedi: "Süffə əhlinin[23] yanına get və onları mənim yanıma çağır!"

(Əbu Hureyra) dedi: "Süffə əhli İslam dininin qonaqları idi və onların Mədinədə nə ailəsi, nə mal-dövləti, nə də yaxın bir adamı var idi. Peyğəmbərə ﷺ sədəqə gətirildikdə bunu onlara göndərər və ondan özünə heç bir şey götürməzdi. Ona hədiyyə verildikdə isə ondan bir qədər özünə götürər, qalanını isə onlara göndərər, onları da yeməyə şərik edərdi. Peyğəmbərin ﷺ onları evə dəvət etməsi məni pərişan etdi və mən (öz-özümə) dedim: "Süffə əhli üçün bu bir cam süd nədir ki? Həm də ki, bu süddən içib güc toplamağa mən daha çox layiqəm. Əgər onlar gəlsələr, Peyğəmbər ﷺ mənə südü əvvəlcə onlara verməyi əmr edəcək. Belə olduğu təqdirdə isə çətin ki, mənə bu süddən nəsə çatsın." Lakin Allaha və Onun rəsuluna itaət etməkdən başqa çarəm qalmadığından gedib onları çağırdım. Onlar gəlib içəri keçmək üçün izn istədilər və onlara izn verildi. Onlar içəri daxil olub yerbəyer olduqdan sonra Peyğəmbər ﷺ dedi: "Ey Əbu Hirr!" Dedim: "Əmrinə müntəzirəm, ya Rəsulullah!" Dedi: "Götür (bu südü), onlara ver!" Mən camı götürüb onlara birər-birər verməyə başladım. Onlardan hər biri camı götürüb doyunca süd içdikdən sonra onu mənə qaytarır, mən də onu alıb növbəti adama uzadırdım. Nəhayət, oradakıların hamısı (bu

[22] 1879-cu hədisin qeydlərinə bax.
[23] 369-cu hədisin qeydlərinə bax.

süddən) içib doyandan sonra mən camı Peyğəmbərə ﷺ uzatdım. Peyğəmbər ﷺ camı götürüb əlinin içinə qoydu, sonra mənə baxıb gülümsədi və dedi: "Ey Əbu Hirr!" Dedim: "Əmrinə müntəzirəm, ya Rəsulullah!" Dedi: "Mən, bir də sən qaldın!" Dedim: "Elədir, ya Rəsulullah!" Dedi: "Otur, iç!" Mən oturub (süddən) içdim. Bir daha: "İç!"– dedi və mən (yenə süddən) içdim. Peyğəmbər ﷺ bunu o vaxta qədər təkrar etdi ki, axırda mən dedim: "Yox, səni haqq ilə göndərən Allaha and olsun ki, içməyə yerim yoxdur." Dedi: "Elə isə onu mənə ver!" Mən camı ona verdim və o, Allaha həmd edib "bismillah" dedikdən sonra südün artıq qalanını içdi."[24]

18. Əbu Hureyrə ﷺ rəvayət etmişdir ki, Xeybər fəth edildiyi zaman bir yəhudi qadın (Zeynəb bint Haris) qoyun əti bişirib ona zəhər qatdı və onu Peyğəmbərə ﷺ hədiyyə göndərdi. Peyğəmbər ﷺ bu ətdən *bir tikə* yedikdən sonra yanındakılara dedi: "Əlinizi *yeməkdən* çəkin! Çünki bu ət mənə zəhərli olduğunu bildirdi. *Bu ətdən yemiş səhabələrdən biri* Bişr ibn Bəra ibn Məmur əl-Ənsari vəfat etdi. Sonra Peyğəmbər ﷺ o qadını yanına çağırtdırıb ondan: "Səni bu işi görməyə nə vadar etdi?"– deyə soruşdu. Qadın dedi: "Əgər peyğəmbərsənsə, onda bu zəhərin sənə zərəri dəyməyəcək, yox əgər padşahsansa, *öləcəksən və* camaatın canı sənin əlindən dincələcək." Bundan sonra Peyğəmbərin ﷺ əmri ilə o qadını qətlə yetirdilər."[25]

19. Rəvayət edilir ki, Ənəs ﷺ demişdir: "Ummu Suleym Səfiyyəni Peyğəmbər ﷺ üçün hazırladı və gecə onun yanına apardı. Zifaf gecəsinin səhəri Peyğəmbər ﷺ dedi: "Qoy kimdə (yeməyə) bir şey varsa bura gətirsin" və yerə bir dəri sərdi. (Bu vaxt) kimi xurma, kimi də yağ gətirdi.

(Bu hədisi) rəvayət edənlərdən biri dedi: "Güman edirəm ki, Ənəs sıyığı da qeyd etdi."[26]

---

[24] Buxari (6452).
[25] Əbu Davud (4510).
[26] Buxari (5387), Muslim (1365).

20. Əbu Musa ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Əşarilərin[1] döyüş əsnasında ərzağı azaldıqda və ya şəhərdə ikən ailələrinin yeməyi azaldıqda, onlar özlərində olan ərzağın hamısını bir parçanın üstünə yığar, sonra da bir qabla (hər kəs üçün) eyni ölçüdə çəkərək onu öz aralarında bölüşdürərdilər. Onlar məndəndirlər, mən də onlardanam."[2]

21. Əbu Hureyrə ﷺ yaxud, Əbu Səid[3] ﷺ demişdir: "Təbuk[4] döyü-döyüşündə camaata aclıq üz vermişdi. Onlar (Peyğəmbərin ﷺ yanına gəlib) dedilər: "Ya Rəsulullah! İzn versəydin, yük dəvələrimizi kəsib ətindən yeyər, yağından da istifadə edərdik".[5] Peyğəmbər ﷺ: "Elə də edin!"– deyə buyurdu. Bu vaxt Ömər gəlib dedi: "Ya Rəsulullah! Əgər belə etsək, miniyimiz azalacaq. (Yaxşı olar ki,) camaata ərzaqlarının qalanını sənin yanına gətirməyi buyurasan, sonra da onlar üçün Allahdan buna bərəkət diləyəsən. Yəqin ki, Allah bunun bərəkətini artırar". Peyğəmbər ﷺ: "Bəli!"– dedi. Sonra bir döşənək gətizdirdi və onu yerə sərdi. Sonra da camaata artıq qalmış ərzaqlarını gətirib (onun içinə qoymağı) buyurdu. (Onlardan) kimisi bir ovuc darı, kimisi bir ovuc xurma, kimisi də bir tikə yemək gətirməyə başladı. Nəhayət, döşənəyin üstündə az miqdarda ərzaq yığıldı. Peyğəmbər ﷺ yığılmış (ərzaq komasına) bərəkət dilədikdən sonra (camaata): "Xurcunlarınızı doldurun!"– deyə buyurdu. Onlar da xurcunlarını doldurmağa başladılar. Nəhayət, orduda olan xurcunların hamısını (ağızbaağız) doldurdular. Üstəlik (bu yeməkdən) doyuncaya qədər yedilər. Hələ artıq da qaldı. Onda Peyğəmbər ﷺ dedi: "Mən şahidlik edirəm ki, Allahdan başqa (ibadətə layiq olan) məbud yoxdur və mən Allahın elçisiyəm! Bu iki (şəhadət kəlməsinə) şəkk etməyərək bunlarla Allaha qovuşan hər bir bəndə mütləq Cənnətə girəcəkdir".

---

[1] Yəmən qəbilələrindən biri.
[2] Buxari (2486), Muslim (2500).
[3] Ravi Aməş hədisin kim tərəfindən rəvayət edildiyinə şəkk etmişdir.
[4] Mədinədən 700 km şimalda yerləşən şəhər.
[5] Bu, dəlildir ki, ordu başçısının izni olmadan heç bir əsgər döyüşdə istifadə etdiyi miniyi kəsməməli-məməlidir. Başçı da yalnız xeyir əldə etmək və ya fəsadın qarşısını almaq üçün buna izin verə bilər.

22. Nafi rəvayət edərək demişdir: "İbn Ömərin yanına onunla birlikdə yemək yeməsi üçün bir yoxsul gətirilməyincə yemək yeməzdi. Bir dəfə mən onun yanına bir nəfər gətirdim və həmin adam həddindən artıq çox yedi. (İbn Ömər) dedi: Ey Nafi bir daha bunu mənim yanıma gətirmə. Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "Mömin bir qarnı üçün yeyir, kafir isə yeddi qarnı üçün yeyir."[1]

23. Rəvayət edilir ki, Ənəs ؓ demişdir: "Yəhudilər heyz zamanı evdə qadınlara birlikdə yemək yeməz, habelə onlarla yaxınlıq etməzdilər. Səhabələr bu barədə Peyğəmbərdən ﷺ soruşduqda Uca Allah bu ayəni nazil etdi: **"Səndən heyz barəsində soruşurlar. De: "Bu, əziyyətverici bir haldır. Heyz vaxtı qadınlarla *yaxınlıq etməkdən* uzaq olun və pak olmayınca onlarla yaxınlıq etməyin. Onlar təmizləndikdən sonra isə Allahın sizə buyurduğu yerdən onlara yaxınlaşın". Şübhəsiz ki, Allah tövbə edənləri də sevir, pak olanları da."** [2] Peyğəmbər ﷺ dedi: "Yaxınlıq etməkdən savayı hər şey edə bilərsiniz."[3]

24. Rəvayət edilir ki, Aişə ؓ demişdir: "Mən heyzli ikən *su* içər, sonra da qabı Peyğəmbərə ﷺ uzadardım. O da ağzını mənim ağzımın dəydiyi yerə qoyub *su* içərdi. Yenə heyzli olduğum halda sümüklü soyutma ətdən dişləyər, sonra da onu Peyğəmbərə ﷺ uzadardım. O da ağzını mənim ağzımın dəydiyi yerə qoyub *ətdən dişləyərdi*"[4]

25. Abdullah ibn Sədin belə dediyi rəvayət olunur: Mən Peyğəmbərdən ﷺ heyzli qadınla birlikdə yemək barədə soruşduqda o dedi: "(Heyzli qadınla birlikdə) yeyə bilərsən."[5]

---

[1] Buxari (5393), Muslim (2060).
[2] əl-Bəqərə, 222.
[3] Muslim (.......)
[4] Muslim (692).
[5] Əbu Davud (1/361), İbn Macə (1/213), Tirmizi (1/351-352).

26. Rəvayət edilir ki, Cabir رضي الله عنه demişdir: "Bir dəfə Rəsulullah ﷺ səhabələri ilə birlikdə bir qadının yanından keçdilər. Həmin qadın bir qoyun kəsib yemək bişirdi. Onlar geri döndükdə qadın dedi? Ey Allahın rəsulu, biz sizin üçün yemək bişirmişik, buyururn yeyin. Rəsulullah ﷺ səhabələri ilə birlikdə içəri daxil oldular. Adəti üzrə Peyğəmbərdən ﷺ öncə heç kim yeməyə başlamazdı. Peyğəmbər ilk loxmanı götürər-götürməz dedi: "Bu qoyun sahibinin izni olmadan kəsimişdir." Qadın dedi: "Ey Allahın peyğəmbəri, nə biz Sad ibn Müazın ailəsindən çəkinirik, nə də onlar bizdən. Biz onların (malından), onlar da bizimkindən götürürlər."[1]

27. Rəvayət edilir ki, Əbu Cuheyfə رضي الله عنه demişdir: "Salmanla Əbu Dərda Peyğəmbərin ﷺ sayəsində bir-birilə qardaş oldular. (Bir dəfə) Salman Əbu Dərdanı ziyarət etdi və Ummu Dərdanın[2] əynində köhnə paltar olduğunu görüb: "Niyə bu görkəmdəsən?"– deyə soruşdu. (Ummu Dərda): "Qardaşın Əbu Dərdanın dünyaya marağı yoxdur"– deyə cavab verdi. Sonra Əbu Dərda gəlib Salmanın qabağına yemək qoydu. Salman: "(Sən də) ye!"– dedi. Əbu Dərda: "Mən oruc tutmuşam"– dedi. Salman: "Sən yeməyincə mən yeyən deyiləm"– dedi, o da yeməkdən yedi. Gecə olduqda Əbu Dərda qalxıb namaz qılmaq istədi. Salman: "(Hələlik) yat!"– dedi, o da yatdı. Sonra yenə qalxıb namaz qılmaq istədikdə Salman: "(Hələlik) yat!"– dedi. Nəhayət, gecənin axır saatlarında Salman (ona): "İndi qalxa bilərsən" dedi və onlar (qalxıb) namaz qıldılar. Sonra Salman ona dedi: "Rəbbinin sənin üzərində haqqı vardır, nəfsinin sənin üzərində haqqı vardı, ailənin sənin üzərində haqqı vardır. Elə isə hər bir haqq sahibinə haqqını ver." (Səhəri gün) Əbu Dərda Peyğəmbərin ﷺ yanına gəlib hadisəni ona xəbər verdikdə, Peyğəmbər ﷺ: "Salman doğru söyləmişdir"– dedi.[3]

28. Suveyd ibn Nomən رضي الله عنه rəvayət edir ki, o, Xeybər ilində Peyğəmbərlə ﷺ birlikdə səfərə çıxdı. Nəhayət, gəlib Xeybərin

---

[1] Əhməd (3/351), Əbu Davud (9/180).
[2] Ummu Dərda رضي الله عنها Əbu Dərdanın رضي الله عنه həyat yoldaşıdır.
[3] Buxari (1968).

yaxınlığında yerləşən Səhbaya yetişdikdə əsr namazını qıldırdı. Sonra (yola götürülmüş) azuqəni gətirməyi buyurdu. (Ona) sıyıqdan başqa bir şey gətirmədilər. Peyğəmbər ﷺ (əshabələrinə) sıyığı islatmağı əmr etdi. Sonra həm Peyğəmbər ﷺ, həm də biz (o sıyıqdan) yedik. Sonra Peyğəmbər ﷺ məğrib namazını qılmaq üçün ayağa qalxdı, ağzını yaxaladı, biz də ağzımızı yaxaladıq; sonra da dəstəmaz almadan namaz qıldırdı.[1]

29. Vəhşi ibn Hərb atasından, o da öz atasından nəql edərək demişdir ki: Peyğəmbərin ﷺ səhabələri (ondan soruşaraq) dedilər: Ey Allahın Rəsulu, bizlər yemək yeyirik, lakin doymuruq. Peyğəmbər ﷺ dedi: "Yəqin ki siz bir yerdə yemirsiniz." Onlar: Bəli-deyə cavab verdilər. Peyğəmbər ﷺ dedi: "Yeməyinizi bir yerdə yeyin, onun üzərində Allahın adını çəkin, (bununla da) yeməyinizə bərəkət verilər."[2]

30. İbn Abbasdan ﷺ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: "Bərəkət yeməyin ortasına enir. (Odur ki) yeməyin ortasından deyil kənarından yeyin."[3]

31. Rəvayət edilir ki, Cabir ibn Abdullah ﷺ demişdir: "(Bir zaman) Peyğəmbər ﷺ üç yüz nəfərdən ibarət qoşuna Əbu Ubeydə ibn Cərrahı başçı təyin edib onları dənizin sahilinə tərəf yolladı. Biz (Mədinədən) yola düşdük və (nəhayət,) yolun bir hissəsini qət etdikdən sonra ərzağımız qurtarmağa başladı. Onda Əbu Ubeydənin əmri ilə qoşunun bütün ehtiyat ərzağı bir yerə cəm edildi və cəmi iki xurcun xurma yığıldı. Əbu Ubeydə hər gün bu xurmalardan bizə az-az verməyə başladı və iş o yerə gəlib çatdı ki, hər kəsə ancaq bir dənə xurma çatdı."

(Hədisi danışan ravi dedi): "Mən soruşdum: "Bir xurmanın sizə nə faydası olurdu ki?" Cabir dedi: "Artıq o da tükəndikdə biz onun

---

[1] Buxari (209).
[2] Əbu Davud (3764).
[3] Tirmizi (4/260).

yoxluğunu hiss etdik. Sonra biz gəlib dənizin sahilinə çatdıq və orada dağ boyda bir balıq gördük. Camaat on səkkiz gün o balıqdan yedi. Sonra Əbu Ubeydənin əmri ilə balığın qabırğalarından ikisini dikəltdilər. Sonra (yenə) onun əmri ilə (ən hündürboy) atlı bu qabırğaların altından keçdi və onun başı bu sümüklərə dəymədi."[1]

32. Rəvayət edilir ki, ibn Əbu Əufə ﷺ demişdir: "Biz Peyğəmbərlə ﷺ birlikdə yeddi, yaxud altı döyüşdə iştirak etmişik. (Həmin ərəfədə) biz çəyirtkə yeyirdik."[2]

33. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Birinizin köləsi yemək bişirib onu isti-isti, tüstüsü çıxaraq sizə gətirdikdə onu da özü ilə birlikdə oturdub yesin. Əgər yeməyin miqdarı az olarsa (heç olmasa) onun ağzına həmin yeməkdən bir-iki loxma qoysun."[3]

34. Zəhdam rəvayət edərək demişdir: Bir dəfə Əbu Musa əl-Əşarinin yanında idik, bizimlə Cərm oğullarının bu məhəlləsi arasında qardaşlıq var idi. Bizə içərisində toyuq əti olan yemək gətirildi. Məclisdəkilərin arasında qırmızıdərili bir kişi var idi. O, yeməyə yaxın gəlmədi. Dedi: Yaxın gəl, mən Rəsulullahın ﷺ həmin yeməkdən yediyini görmüşəm. (Həmin şəxs) dedi: Mən onun yediyi yeməkdən iyrəndiyim üçün ondan dadmayacağıma and içdim. Dedi: Yaxın gəl sənə deyəcəyim var. Bir dəfə mən bir neçə əşari ilə birlikdə Peyğəmbərin ﷺ yanına getmişdim. Həmin vaxt o, hirsli idi. O, sədəqə bölüb paylayırdı. Biz ondan bəzi şeylər istədik. O isə istədiklərimizi bizə verməyəcəyinə and içərək dedi: "İstədikləriniz məndə yoxdur ki, onu sizə verim." Bir müddət sonra Peyğəmbərə ﷺ dəvələr gətrildi. O dedi: "Haradadır əşarilər, haradadır əşarilər?" O bizə yuxarı hissəsi ağ olan beş kök dəvə verdi. Biz azca aralaşıb dostlarıma dedim: Yəqin ki, Peyğəmbər ﷺ verdiyi andı unudub. Allaha and olsun ki, Peyğəmbərə

---

[1] Buxari (2483), Muslim (1935).
[2] Buxari (5495), Muslim (1952).

ﷺ verdiyi andı xatırlatmasaq əsla xeyir tapmarıq. Biz Peyğəmbərin ﷺ yanına qayıdıb dedik: "Ey Allahın rəsulu, (bir dəfə) biz səndən bəzi şeylər istəmişdik, sən də and içmişdin ki bizə istədiklərmizi verməyəcəksən. Düşündük ki, ola bilsin verdiyin andı unutmusan. Peyğəmbər ﷺ dedi: "Sizə bunu istədən Allahdır, vallahi ki, bəzən mən nəyəsə görə and içirəm, sonra da başqa bir əməlin ondan daha xeyirli olduğunu görüb, andımı pozmaqla daha xeyirli olanı edirəm."[1]

35. Rəvayət edilir ki, Ənəs ibn Malik ؓ demişdir: "Rəsulullah ﷺ nadir hallar istisna olmaqla, çörəkdən və ətdən doyunca yeməmişdir."[2]

36. Rəvayət edilir ki, Əbu Hureyra ؓ demişdir: "Çörək yemədiyim və ipək (qiymətli libas) geyinmədiyim, habelə heç kimin mənə xidmət etmədiyi vaxtlarda qarnımı doyura bilmək üçün Peyğəmbərlə ﷺ birlikdə gəzib dolanırdım. O zaman mən qarnıma daş bağlayırdım. Bəzən bildiyim halda birindən bir ayəni oxumasını istəyirdim ki, bəlkə mənə diqqət yetirib yemək verə. Yoxsullara qarşı ən xeyirli olan Cəfər ibn Əbu Talib ؓ idi. Hətta bəzən elə olurdu ki, o, yağ qabını bizə verirdi ki, onun dibini sıyıraq."[3]

37. Rəvayət edilir ki, Əbu Məsud əl-Ənsari ؓ demişdir: "Ənsarın arasında Əbu Şueyb adlı bir kişi var idi. Bu kişinin qəssablıq edən bir köləsi var idi. (Bir dəfə kişi ona): "Mənim üçün elə yemək hazırla ki, Peyğəmbərlə ﷺ birlikdə beş nəfər adamı (yeməyə) dəvət edə bilim." Sonra o, Peyğəmbəri ﷺ beş nəfərin beşincisi olaraq yeməyə dəvət etdi. (Yolda) bir nəfər onlara qoşuldu. Peyğəmbər ﷺ (ev sahibinə) dedi: "Sən bizim beşimizi (yeməyə) dəvət etdin. (Yolda) bu adam bizə qoşuldu. İstəyirsən, izn ver (o da bizimlə gəlsin), istəyirsənsə, çıxıb getsin." Kişi dedi: "Yox, izn verirəm, qoy gəlsin."[4]

---

[1] Buxari (5518), Muslim (1946).
[2] Əhməd (3/270), Əbu Yalə (5/420).
[3] Buxari (3708-5432).
[4] Buxari (5434), Muslim (2036).

38. Rəvayət edilir ki, Ənəs ﷺ demişdir: "Mən hicab ayəsi haqqındakı məlumatı hamıdan yaxşı bilirəm. Vaxtı ilə Ubey ibn Kəb bu haqda məndən soruşardı. Peyğəmbər ﷺ Mədinədə Zeynəb bint Cəhş ilə evləndi. Zifaf gecəsinin səhəri günəş yüksəldikdən sonra Peyğəmbər ﷺ camaatı yemək-içməyə dəvət etdi. Hamı dağılışıb getsə də, bir neçə nəfər Peyğəmbərin ﷺ yanında qaldı. İş o yerə gəlib çatdı ki, Peyğəmbər ﷺ özü durub getdi, mən də onunla birlikdə getdim. Nəhayət, o gəlib Aişənin hücrəsinin qapısına çatdı. Bir qədər keçdikdən sonra o, evindəki adamların çıxıb getdiyini zənn edib evə qayıtdı və mən də onunla birlikdə geri qayıtdım. Lakin gəlib gördü ki, onlar hələ də oradadırlar. Yenə çıxıb getdi və mən də onunla birlikdə getdim. Yenə Aişənin hücrəsinin qapısına çatdı və bir qədər gözlədikdən sonra geri qayıtdı və mən də onunla birlikdə qayıtdım. O adamlar artıq çıxıb getmişdilər. Onda Peyğəmbər ﷺ mənimlə öz (ailəsi) arasına pərdə tutdu və beləliklə də hicab ayəsi nazil oldu."[1]

39. Rəvayət edilir ki, Cabir ﷺ demişdir: "Biz Xəndək döyüşündən (əvvəl) xəndək qazarkən qabağımıza olduqca sərt bir qaya parçası çıxdı. (Əshabələr qaya parçasını bölə bilmədiklərindən) Peyğəmbərin ﷺ yanına gəlib dedilər: "Xəndəkdən bir qaya parçası çıxıb." Peyğəmbər ﷺ: "Mən düşərəm (xəndəyə)"– deyib ayağa qalxdı. Həmin vaxt o, (aclığı hiss etməsin deyə,) qarnına (üç ədəd) daş bağlamışdı. Çünki üç gün idi ki, bizim dilimizə bir şey dəymirdi. Peyğəmbər ﷺ külüng götürüb (qaya parçasına) bir zərbə endirdi və o, dağılıb qum təpəsinə çevrildi. Mən (Peyğəmbərə ﷺ) dedim: "Ya Rəsulullah, evə getməyimə izn verərsənmi?" (Mən evə gəlib) zövcəmə dedim: "Mən Peyğəmbəri ﷺ elə bir halda gördüm ki, buna dözə bilmədim. (Yeməyə) bir şey varmı?" (Zövcəm) dedi: "Evdə bir qədər arpa və bir keçi var." Mən keçini kəsdim, (zövcəm də) arpanı üyütdü. Nəhayət, əti qazana qoyduq. Sonra mən Peyğəmbərin ﷺ yanına getdim. Artıq xəmir mayalanmışdı, qazandakı ət də bişib hazır olurdu. Mən (ona) dedim: "(Evdə) azacıq yeməyimiz var. Dur, ya Rəsulullah, bir-iki nəfər də

[1] Buxari (5466), Muslim (1428).

götür (gedək bizə)." Peyğəmbər ﷺ soruşdu: "Nə qədər yemək var?" Mən ona (yeməyin qədərini) bildirəndə o dedi: "(Nə) çox, (nə) gözəl!" (Sonra əlavə edib) buyurdu: "Zövcənə de ki, mən gələnədək nə qazanın qapağını açsın, nə də çörəyi təndirdən çıxartsın." Bundan sonra (Peyğəmbər ﷺ gəlib əshabələrinə): "Qalxın!"– dedi və mühacirlərlə ənsar qalxıb (onunla getdi)."

Cabir zövcəsinin yanına daxil olduqda qadına dedi: "Ay biçarə, Peyğəmbər ﷺ mühacirlərlə, ənsarla və onların yanında olan kimsələrlə birlikdə gəlir." Qadın (ona) dedi: "O səndən (bir söz) soruşdumu?" (Cabir dedi): "Mən: "Bəli!"– deyə cavab verdim. Peyğəmbər ﷺ (əshabələrinə) dedi: "İçəri keçin, amma basabas salmayın." Peyğəmbər ﷺ çörəkdən qırıb ətdən də götürüb onun arasına qoyduqdan sonra qazanın və təndirin ağzını örtürdü. (O, hər dəfə yeməyi) əshabələrinə verdikdən sonra (qazanın və təndirin ağzını açıb onlar üçün) yemək hazırlayırdı. Əshabələrin hamısı yeyib doyana kimi o, çörəkdən qırıb yeməkdən götürməyə davam etdi. (Yeməyin) qalanı qaldı və Peyğəmbər ﷺ (qadına) buyurdu: "(Götür) bunu, özün də ye, (ehtiyacı olanlara da) ver. Çünki insanlara aclıq üz vermişdir."[1]

40. Rəvayət edilir ki, Huzeyfə ﷺ demişdir: "Peyğəmbərlə ﷺ birlikdə olarkən yemək verildikdə o əlini süfrəyə uzadıb yeməyə başlamadan biz də başlamazdıq. Bir dəfə yenə biz onunla yemək vaxtı birlikdə olarkən bir qız uşağı gəldi. O, tələsik əlini yeməyə uzatdıqda Peyğəmbər ﷺ onun əlini (süfrədən) çəkdi. Sonra bir bədəvi gəlib tələsik əlini yeməyə uzatdıqda Peyğəmbər ﷺ onun da əlini geri çəkərək dedi: "Şübhəsiz ki, şeytan üərində Allahın adı çəkilməyən yeməyə qoşular. Bu qız əlini yeməyə uzatdıqda şeytan da əlini yeməyə uzadırdı, mən də bu səbəbdən olunu əlini geri çəkdim. Həmçinin bədəvi də əlini yeməyə uzatdıqda şeytan onunla birlikdə əlini yeməyə uzadırdı. Mən də onun əlini geri çəkdim. Canım əlində olana and olsun ki, qızın əlini tutub geri çəkdikdə şeytanın da əli onunla birlikdə mənim əlimin içərisində idi."[2]

---

[1] Buxari (4101), Muslim (2039).
[2] Muslim(2017).

41. Əbu Hureyra رضي الله عنه rəvayət edərək demişdir; Bir dəfə Quba əhlindən olan bir ənsar Peyğəmbəri ﷺ (evinə) dəvət etmişdi. O yeməyini bitirdikdən sonra əllərini yuyub dedi: "Əlhəmdulilləhilləzi yutimu va lə yutamu, mənnə aleynə fəhədənə, va ətamənə va səqanə, va kullə bələin həsənin əblənə, əlhəmdulilləhi ğayra muvaddiin va lə mukəfən, va lə məkfurin va lə mustəğnin anhu, əlhəmdulilləhilləzi ətamə minət-taəm, va səqa minəş-şərab, va kəsə minəl-ura, va hədə minəd-dalələ, va bəssara minəl-amə, va fəddalə alə kəsirin min xalqihi təfdilə, əlhəmdulilləhi rabbil aləmin.[1]"[2]

Əbu Umamə رضي الله عنه rəvayət edir ki, yemək süfrəsi yığışdırıldıqda Peyğəmbər ﷺ deyərdi: "Əlhəmdulillahi həmdən kəsiran tayyibən mubarəkən fihi ğayra məkfiyyin və lə muvəddəin və lə mustəğnə anhu Rabbənə.[3]"[4]

---

[1] Tərcüməsi:"Həmd olsin o Allaha ki, o yedizdirir, Özü isə yemir, O, bizlərə minnət edib hidayət vermişdir, bizi yedirdib içirtmişdir, bizi gözəl bir şəkildə imtahana çəkmişdir, Allaha həmd olsun, (özü də) çoxlu, xoş, mübarək, sonsuz, ardı-arası kəsilməyən, onsuz keçinmək mümkün olmayan bir həmd! Yemək yedirən, su içirən, bizlərə örtünmək üçün libas verən, zəlalətdən çıxarıb hidayət verən, kor ikən gözlərimizi açan və bizi bir çox yaratdıqlarından üstün edən Allaha şükürlər olsun. Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur."

[2] Nəsainin "Aməlul yaumi val-leylə" əsəri (269-cu səh).

[3] Tərcüməsi: Rəbbimiz Allaha həmd olsun, (özü də) çoxlu, xoş, mübarək, sonsuz, ardı-arası kəsilmə-yən, onsuz keçinmək mümkün olmayan bir həmd!

[4] Buxari (5458).